Adımız məfkurəmizdir

5 - 9 may 2022-ci il

Türküstan

www.turkustan.az

# Əbədi yaşamaq haqqı - Şövkət Ələkbərova fenomeni

Əlisəftər Hüseynov

***...Vaxt keçir, dövran dəyişir - hər şey, o cümlədən sənət, yaradıcılıq sahəsindəki meyarlar da yenilənir. Lakin bir çox hallarda gündəliyə gələn, "aktuallaşıb" hakim mövqeyə keçən düşüncə paradiqmaları, zövq kriteriyaları hazırda orta və yuxarı yaş dövrünü yaşayan və estetik zövqü korifey sənətkarların yaratdıqları əsl dəyərlər əsasında formalaşan mənim kimi "mühafizəkarların" etirazı, mənəvi direnişi ilə qarşılaşır. Bəzi sözləri dırnaq içinə almağım sizi çaşdırmasın, dostlar - bizim mühafizəkarlığımızı, bədbinliyimizi sözün birbaşa mənasında işlədənlər əslində bu missiyanı zorla boynumuza qoyanlar, bu yarlığı bizə yapışdıranlardır. Halbuki, biz xalqımızın sənət xəzinəzinə dəyərli töhfələr vermiş sənətkarları mümkün qədər küncə sıxışdırıb boş qalmış meydana soxularaq orada at oynadan antisənətə, onun təmsilçilərinə qarşıyıq və bu mənada həqiqi dəyərlərin, həqiqi sınətin keşiyində dayanan mühafizəkar olmaq heç də pis deyil, bəlkə də zəruridir (lap şərəfli işdir!)***

> ## "Mən yaratdıqca yaşamaq, yaşadıqca yaratmaq istəyirəm"
> **Ş.Ələkbərova**

***Heç uzağa getməyək, vokal-instrumental musiqi ifaçılığı sahəsində estetik zövqü, deyək ki, Sara Qədimova, Şövkət Ələkbərova, Rübabə Muradova, Flora Kərimova g kimi sənətkarların yaratdıqları şedevrlər çevrəsində formalaşan bizlər bu günlər səslərini kompütet effektləri ilə yonub -yontalayaraq "abıra" salanların, ata- anası bilinməyən bic avazlarla möhtəkirlik edənlərin, güya böyük sənət yaratdıqlarına görə özlərini başqalarına da etalon kimi sınmaq istəyənlərin "yaradıcılığından" zövq ala bilərmi? Bizim ruhumuzu fəth etmiş o gözəl, təkrarsız səsləri, böyük sənətkarlarımızın yaratdıqları inciləri bu miskin (fəqət hakim mövqedə dayanan) psevdosənətin ayağına versək, Allah bizi bağışlamaz axı!***

Nə isə, deyəsən müqəddimə bir az uzun alındı. Ona görə də mən yazımın üvertyurasını burada bitirib keçirəm əsas məsələyə - vokal sənətimizdə etalona, meyara çevrilmiş Şövkət Ələkbərova fenomeninə.

Boynuma alıram ki, mən Şövkət xanımın səsinə, sənətinə o səsi elə ilk dəfə eşitdiyim andaca heyran olmamışam. Bu vurğunluğun çox qəribə və maraqlı bir tarixçəsi var.

Musiqi, ifaçılıq sahəsində özümün ilk primitiv düşüncə modellərimi qurduğum yeniyetməlik vaxtlarımda Şövkət xamım yalnız bəstəkar mahnıları oxuyurdu və mən də onu elə bu ampluada fəaliyyət göstərən bir müğənni kimi tanıyırdım. Üstəlik, o vaxtlar radio və televiziyamız öz əsas, matah boxçasını - qızıl səslər arxivini açıb hamının malına, zövq mənbəyinə çevirmək sahəsində indiki kimi səxavətli deyildi. Artıq musiqinin fəlsəfəsini, estetikasını az-çox anladığım günlərin birində - onda mən gənclik dövrünü arxada buraxmışdım - bazar günü xidməyi işimlə bağlı çalışdığım qəzetin redaksiyasına gəldimgTəfərrüatlara varmayacam, düz saat 14-də həmişə mənimlə olan "Xəzər" radioqəbuledicimi işə saldlm ki, "Muğam saatı" nın xoş sədaları altında bir az dincəlim. Diktor növbəti ifanı təqdim edəndə əlimdəki qələmlə bir yerdə sanki damarlarımdakı qanım da bir anlığa dondu: "Mirzə Hüseyn segahı. Oxuyur Şövkət Ələkbərova". Mənə elə gəldi ki, ya verilişin redaktoru texniki səhvə yol verib, ya da da həmin o boş otaqdakı sükut mənimlə zarafat edir - Şövkət xanım Ələkbərova nə vaxtdan muğam dəstgahı oxuyan olub axı!?

Tam əmin idim ki, giriş rəngindən sonra eşidəcəyim səs, avaz hər şeyi yoluna qoyacaq, amma Şövkət xanımın ilk avazındaca açılan ağzım təxminən 15 dəqiqə - dəstgahın ifası başa çatana qədər elə o cür açıq qaldı, üstəlik "Segah" şöbəsi oxnanda deyəsən başımın tükləri biz-biz olub papağımı bir az dikəktdi, sonuncu şöbə ifa olunanda isə mənim şəklimi çəkən olsaydı trans vəziyyətinə düşmüş bir zavallının vizual obrazını yaratmaq sahəsində heç şübhəsiz ki, böyük yaradlcılıq uğuruna imza atmış olardıg



***Həmin o 15 dəqiqə müddətində mən həmin kimsəsiz redaksiyanın kiçik iş otağında deyildim - haradasa irreal bir məkanda idim və sanki uzaqdan - qeybdən gələn bir səsə təslim olmuşdum...***

***O vaxtacan (bütün məsuliyyətini üzərimə götürüb deyirəm ki, elə indiyəcən!) qadın müğənnilərimizdən heç kimin ifasında belə şirin, təsirli "Mirzə Hüseyn segahı" eşitməmişdim!***

***Bu, sadəcə oxumaq deyildi - bu, qeyri-adi səs obrazları ilə həsrətin, nisgilin, şikayətin, təminnasız sevginin... izharı idi.***

***Lakin mənim təəccüb qarışıq heyranlığımı illərin o tayında, həmin o otaqda qoyub elə Şövkət xanımım səsinin qanadları üzərində indiyə - bu sətirləri yazdığım anlara, məkan qayıdaq...***

İnternet məişətimizə daxil olandan sonra mən Şövkət xanımın uzun illər əldə edə bilmədiyim həmin o ifası ilə yanaşı, "Şahnaz", "Qatar" muğamlarının, "Kəsmə şikəstə" zərb muğamının o vaxta qədər eşitmədiyim başqa bir variantının lent yazılarını "You tube" kanalında tapıb təkrar-təkrar dinlədim, onun muğam ifaçılığı sahəsindəki fəaliyyəti ilə yaradıcılığının sonrakı - mahnı ifaçılığı dövrü arasındakı ilişgiləri axtardım və nəhayət, Şövkət xanımın sənətinin təkrarsızlığını, bənzərsizliyini, əbədiyaşarlığını və GÖZƏLLİYİNİ şərtləndirən amillər mənə tam şəkildə əyan oldu.

Yaxşı, nə üçüb "yaxşı ifa", "yaxşı səs" yox, məhz gözəl səs, gözəl ifa? Fərq nədədir?

***Fərq ondadır ki, ümumiyyətlə, yaxşı olan hər şey bizim hansısa konkret bir umacağımızı, tələbatımızı ödədiyinə görə yaxşı olur və bu missiyadan kənarda o öz yaxşılığını dərhal itirir. Bu, elə musiqiyə də, səsə də, ifaya da aiddir. Məsələn, tutaq ki, mən musiqinin köməyi ilə şənlənmək, əhvalımı yüksətmək istəyirəm və axtarıb öz məqsədimə uyğun həmin musiqini tapıramsa, bu olur yaxşı musiqi. Tez-tez eşitdiyimiz "Əhvalımın vəziyyətindən asılı olaraq, hər cür musiqini sevirəm"- etirafı bu fikri təsdiq edir.***

Gözəl musiqi isə hər cür umacağın, ehtiyacın fövqündə dayanan, sənin əhvalının vəziyyətindən asılı olmayaraq ruhunu oxşayan, sənə xoş gələn musiqidir və bu mənada gözəllik çoxlarının səhv olaraq düşündükləri kimi nisbi yox, əksinə, hamıya xoş gəldiyinə, hamının duyğularını sayrışdırdığına görə mütləqlik qütbünə meyl edən anlayışdır. Hamı tərəfindəın qəbul olunmaq, hamının rəğbətini qazanmaq isə ümumxalq sevgisi qazanmaq deməkdir və Şövkət xanım Ələkbərova da belə bur səviyyəyə yüksəlmiş xoşbəxt sənətkarlardan idi.

> ***Artıq musiqinin fəlsəfəsini, estetikasını az-çox anladığım günlərin birində - onda mən gənclik dövrünü arxada buraxmışdım - bazar günü xidməyi işimlə bağlı çalışdığım qəzetin redaksiyasına gəldimg... Təfərrüatlara varmayacam, düz saat 14-də həmişə mənimlə olan "Xəzər" radioqəbuledicimi işə saldlm ki, "Muğam saatı" nın xoş sədaları altında bir az dincəlim. Diktor növbəti ifanı təqdim edəndə əlimdəki qələmlə bir yerdə sanki damarlarımdakı qanım da bir anlığa dondu: "Mirzə Hüseyn segahı. Oxuyur Şövkət Ələkbərova". Mənə elə gəldi ki, ya verilişin redaktoru texniki səhvə yol verib, ya da da həmin o boş otaqdakı sükut mənimlə zarafat edir - Şövkət xanım Ələkbərova nə vaxtdan muğam dəstgahı oxuyan olub axı!?***

***Onun səsinə, oxuduğu mahnılara gözəllik əyan qatan xüsusiyyətlər - ipək kimi yumşaq səs, əsrarəngiz temr, yalnız sınətkarlıqla yazılmış mahnılardan ibarət repertuar və s. barədə çox danışmaq olar. Lakin mən bu şansı hörmətli musiqişünaslarımıza ötürüb diqqəti zənnimcə, çoxlarının görmədiyi, yaxud görüb əhəmiyyət vermədiyi vacib bir məsələyə yönəltmək istəyirəm.***

Məncə, Şövkət Ələkbərova fenomeninin təməlində onun yaradıcılğının ilk dövrlərində məşğul olduğu muğam ifaçılığı ilə bağlı məqamlar dayanır. Bu fikir ilk baxışdan bir qədər şablon, ənənəvi görünə bilər. Amma fikir verin - bizim xalq mahnılarımız, rəqs melodiyalarımız kimi, bəstəkar mahnıları, istrumental pyeslər, hətta simfonik musiqimizin inciləri, bütövlükdə, professional musiqimiz də xalq musiqisi üzərində ucalıb, çünki muğam ab-havası bizim milli ruhumuzun mütləq atributlarından biridir, hətta yazılarımın birində qeyd etdiyim kimi, düşmənə olan nifrətimiz də muğam "rəngindədir". Şövkət xanım isə bir vaxtlar ustalıqla, şövqlə oxuduğu muğamların şəddi-şəkərini, pozitiv enerjisini - insan nisgilinin, sevincinin, kədərinin, həsrətining səs obrazlarını intuitiv şəkildə oxuduğu mahnılara transfer edərək onların canına hopdura bilən qeyri-adi istedad sahibi idi.

Gəlin razılaşaq ki, bu xoşbəxtlik, heç də hər sənətkara nəsib olmur.

Şövkət xanımın oxuduğu mahnılar - "Axşam oldu", "Getmə yar", " Qızların nəğməsi", "Qəmgin mahnı", "Bir könül sındırmışam" - hansını deyəsən - ...sanki onun oxumadığı, oxumağa macal tapmadığı muğamların rənginə, sayrışdırdığı duyğuların işığına bələnmişdi və məhz buna görə də yaşından, cinsindən asılı olmayaraq hamının ürəyinə yol tapırdı.

Şövkət xanımın hər ifası oxunmamış bir muğamın zəfəri idi!

Burada ustad tarzən Rövşən Zamanovun danışdığı bir əhvalatı xatırlamaya bilmədim: "Ramiz Mirişlinin "Oxu tar" mahnısının lentə alınması ərəfəsində son məşqlərdən biri imiş. Əhsən Dadaşov ifaya giriş kimi "re" kökündə möhtəşəm bir "Segah" gəzişmısi edib, Şövkət xanıma "ayaq" verir, lakin Şövkət xanım nəyə görəsə susur...

Əhsən müəllim görür ki, Şövkət xanım özündə deyil, gözlərini bir nöqtəyə dikərək dərin fikrə dalıb. "Olan şeydir" - deyib həmin gəzişməni bir də təkrar edir...

Şövkət xanım yenə susur...

Əhsən Dadaşov təəccüblə soruşur:

- Şövkət, nə olub, niyə oxumursan?

Şövkət xanım sanki yuxudan ayılaraq titrək səslə deyir:

- Əhsən, ay zalım, səhərdən qoyursan ki, oxuyum...

Sizcə, əlavə şərhə ehtiyac varmı?

***Dahi Niyazi yəqin elə buna görə, bu amili nəzərə alaraq "Qaragilə", "Xumar oldum" mahnılarını simfonik orkestr üçün işləmişdi və Şövkət xanım orkestrin müşayiəti ilə bu inciləri ifa edəndə maestro da qeyri-ixtiyari əlləri, barmaqları, üzünün dəyişən cizgiləri ilə bu mahnıları "oxuyurdu".***

***Şövkət xanım bir sənətkar kimi maksimalist idi - onun sənət fəlsəfəsində "babat", "orta", "miyanə" anlayışları, "yola vermək" fəndi yox idi - o, özünə, dinləyicilərə hörmət qoymağl bacarırdı, çünki ilk növbədə oxuduğu mahnılara hörmətlə yanaşırdı, onları incitmirdi, nəinki hər avzazın, hər sözün, hətta hər səsin, vurğuların, nöqtələrin, vergüllərin, nida, sual işarələrinin üstündə əsirdı.***

Onun xanım-xatınlığı, sadəliyi, qonaqpərvərliyi, səmimiyyəti və təvazökarlığı barədə çox eşitmişəm, amma təəssüf ki, bu xanımla şəxsi ünsiyyətdə olmadığıma görə öz xatirəlırimə istinad edib nə isə yazmaq şansım yoxdur. Ustad tarzən, Göyçay uşaq musiqi məktəbinin direktoru Rövşən Zamanovun danışdığı bir əhvalat isə Şövkət xanımın nə qədər sadə, təvazökar bir insan olduğuna parlaq illüstrasiyadır: "Gənc yaşlarımda bir dəfə iş elə gətirdi ki, Göyçayda qastrolda olan böyük vokalçımız Şövkət Ələkbərovanı müşayiət edəsi oldum. İfa başa çatandan sonra alqış səsləri salonu bürüdü. Şövkət xanım əlinin işarəsi ilə ona ünvanlanmış gutultulu alqışları dayandırıb dedi: "Siz məni yox, bax bu cavan oğlanı, cavan tarzəni alqışlayın!".

Belə böyük ürək yalnız böyük sənətə xidmət edənlərin sinəsində döyünə bilər.

***Şövkət xanım hələ sağlığında adı Azərbaycanın vokal ifaçılığı tarixinə böyük hərflərlə yazılmış sənətkar səviyyəsinə yüksəlmişdi. Lakin mən onu bir dəfə də olsun televiziyada, radio verilişlərində özünü tərifləyən, başqalarına dərs keçən "çoxbilmiş" statusunda görmədim, O, musiqi məktəbindəki tələbələrindən başqa heç kimə dərs keçmirdi, tələbələrini isə təkcə tələbə kimi yox, öz övladları kimi sevirdi.***

***Bu gün Şövkət xanımın səsi təkcə radionun, televiziyanın qızıl fondunda yox, "Görüş", "Onu bağışlamaq olarmı", "Bəxtiyar", "Ögey ana" g.filmlərində yaşayır və illər keçəcək, biz də bu dünyadan köçəcəyik, amma Şövkət xanımın ifaları həmişə yaşayacaq, nəvələrimizin, nəticələrimizin, kötücələrimizin ruh, mənəviyyat Kitabının unudulmaz səhifələri kimi həmişə vərəqlənəcək, onlara vacib bir mövzuda unudulmaz dərs deyəcək...***

***"Əbədi yaşamaq haqqı" dərsini!***

Oxu, oxut, abunə ol!